## *Mövzu 4.* QENDER PROBLEMLƏRİNİN ESTETİK VƏ ETİK ASPEKTLƏRİ

*Estetikanın mahiyyəti. Qender estetikası. Gözəllik estetikanın mərkəzi kateqoriyası kimi. İnsan münasibətləri estetikasında məhəbbət kateqoriyası. Məhəbbətin psixoloji və fiziki aspektləri. Etikanın mahiyyəti. Qender etikası. Etik borc anlayışı. Mənəviyyat və əxlaq. Mənəvi seçim azadlığı. Mənəvi dəyərlərin universallığı və nisbiliyi. Etika insani münasibətlərin qender ölçüsündə. Cinsi və ailə münasibətlərinin etikası.*

Dərketmə mentalitetin yeganə aspekti deyildir. Artıq dediyimiz kimi, dərektmə subyektivdir; insanın subyektivliyi bu və ya digər obrazların, bu yaxud başqa anlayışların müvafiq mental göstərişlərin mövcudluğuna, yəni şüuraltı qata əsaslanmış seçimi deməkdir. Bu göstərişlərin təhlili konkret subyektivliyin səbəblərini müəyyənləşdirməyə imkan verir. Buna görə də bu cür estetik təhlilin mərkəzi anlayışı - gözəllikdir; insan mehribançılığını, nəyə və yaxud kiməsə emosional cəlbi maksimum ifadə edən məhfumdur. Emosional – estetik – cəlbetmə bənzərlikdəki fərqə əsaslanır, buna görə də o – sevgidir.

Şüuraltında, yəni qeyri-şüuri ilə şüur arasında köklənərək, estetik cəlbetmə insanın cinsindən asılı olmayaraq qadınlığın kişiliyə çevrilmə məqamını ifadə edir. Buna görə də hər bir estetik cəlbetmə ikilidir: o, bir tərəfdən, cəlb edən obyektdə ərinmək meylini; digər tərəfdən isə həmin obyekti özünün onun barəsindəki təsəvvürlərindəki çərçivəyə salaraq, bu təsəvvürlərə uyğun olmayan hər şeyi kəsib atmaq meylini əks etdirir. Beləliklə, estetik cəlbetmə sanki obyekti yenidən yaradır.

Tamın hər hansı başqa təhlili kimi, estetik təhlil də obyekti keyfiyyət şərtiliyi kimi nəzərdən keçirir. Burada bu və ya başqa keyfiyyətin aşkarlanma dərəcəsi ilə, onun sonsuz nüanslaşması (dettalaşması, konkretləşməsi) ilə bağlı sual meydana çıxır; başqa sözlə desək, məntiqi olaraq gözəlliyin ümumi meyarlarını müəyyən etmək mümkündür, lakin estetik dərketmə obyektinin həmin meyarlara müvafiqlik dərəcəsinin absolyut estetik qiymətini vermək mümkün deyildir.

Estetik hiss özünü insan varlığının bütün sahələrində aşkar edir. İnsanın emosional cəlbinin obeykti hər şeydən əvvəl onun insan dərki ilə bağlı baza göstərişlərini formalaşdıran mühitlə fiziki təsiridir.

Burada iki aspekti ayırmaq olar: təbiətlə qarşılıqlı təsir və insanın fəaliyyəti nəticəsində əmələ gələn mühitlə qarşılıqlı təsir.

Mühitin yaranma xarakteri insanın rəğbət göstərdiyi şeylər barəsində mühakimə yürütməyə imkan verir. Lakin belə bir sual ortalığa çıxır: burada insan subyektivliyi hansı rolu, mühitin obeyktiv imkanları – hansı rolu oynayır? Əgər mühitin insan «Mən»inin bir hissəsi olduğu haqda ontoloji prinsipdən çıxış etsək, aşağıdakını nəzərə almaq gərəkdir: birincisi, mühitin xüsusiyyətləri artıq növbəti nəsildə sabit estetik qaydalar formalaşdırır; ikincisi, mühitin alternativlik imkanları yüksək olduqca, estetik rəğbət barədə daha dəqiq fikir yürütmək olar; üçüncüsü, mühitin imkanlarını nəzərə almağa məcbur edən utilitar məlumat özlüyündə artıq formalaşmış olan nəsil üçün (yaxud konkret insan üçün) müvəqqəti estetik qaydaların formalaşmasına təkan verir.

Mentallığın obyektivləşməsi də estetik dərkin obyektidir.

Özünün nisbi sabitliyi üzündən mental qaydalar yeni əmələ gəlmiş fiziki üstünlüklərlə ziddiyyət təşkil edə bilər. Eyni zamanda öz-özlüyündə onlar fizikidir və bir hissəsi olduqları mühitlə qarşılıqlı əlaqədədir. Buna görə də hətta ədəbi: səs və qrafik – sanki birdəfəlik yaranmış konkret mühitdən asılı olmayan cismiliyin dərki ayrı-ayrı vəziyyətlərdə, ayrı-ayrı işıqda və şriftlə müxtəlif cür görsənir ki, bu da bədii tamlığın bəzi nüanslarını xüsusi nəzərə çarpdırır və digərlərini isə sönükləşdirir.

Nəhayət, estetik dərk obyekti insanlar arasındakı münasibətlərdir. Emosional meyil bənzərlikdəki fərqə əsaslanır, buna görə də bu – sevgidir. Şəxsiyyət üçün daha kəskin şəkildə sevgi özünü şəxsiyyətin mühitlə qarşılıqlı münasibətində aşkar edir. Eyni

zamanda qeyri-şəxsi strukturların (təbiət, mental hadisələr) estetik dərki onları bu yaxud başqa şəxsə – cəlbetmə obyektinə bənzədir.

Sevginin əsasında fiziki məhəbbət durur, çünki insan hər şeydən əvvəl cisimdir. Fiziki sevgi insan hər hansı sırf mental fəaliyyət kimi, mühitlə qarşılıqlı – harmoniyaya (qarşılıqlı tamamlamaya, dinamik tarazlığa) aparan – əlaqə deməkdir. Fiziki sevgi təbii şəkildə insan hərəkətlərinə xas olan mental iz daşıyır, buna görə də onu insan üçün ən çətin hissi obrazlar sonsuzluğu ilə qidalandıraraq insanın mental aktivliyini həvəsləndirir. Bu proses təbii olaraq müntəzəm xarakter daşımağa cəhd göstərir, çünki əks halda insan sevgisinin mental obrazları ilə reallığın əlaqəsini itirir; mentalitetin və reallığın əlaqəsi isə yaradıcılıq üçün vacibdir. Eyni zamanda seksual istək sevdiyin insanla absolyut tamamlanma meylinə (bu isə prinsipcə mümkün deyil) əsaslandığı üçün seksual istək çox zaman əlçatmaz və reallıqda arzuolunmayan fantaziyalarla həvəsləndirilir.

Şəxsiyyətin daxili vəhdətinin təsiri ilə şəxslərarası sevginin fiziki və mental fəaliyyətin digər aspektlərində öz uyğunluqları vardır.

İnsan mövcudluğunun ictimai xarakteri özünü sevgidə də biruzə verir. Eyni bir insanın ayrı-ayrı adamlarla sevgi münasibətləri çox vaxt yalnız mental və ya yalnız fiziki səviyyələrdə məhdudlaşaraq müxtəlif xarakter daşıyır. Lakin bənzərlikdəki fərq prinsipi daha tam şəkildə özünü heteroseksual sevgidə həm fiziki, həm də mental səviyyədə biruzə verir. Qadın başlanğıcı mühitin şəxslənmiş ifadəsidir, buna görə də o həm fiziki, həm də mental səviyyələrdə kişi başlanğıcında ifadə olunmuş ümuminsani xüsusiyyətlərin bu yaxud digər inkişaf mərhələsini konkretləşdirərək, bir tərəfdən təhrik edir, digər tərəfdən məntiqi sona çatdırır. Qadın başlanğıcının bu cür şərhi kişi və qadının qarşılıqlı tamamlanması məntiqinə uyğun gəlir.

Şüuraltı qatın emosional (estetik) göstərişləri insanın əxlaqını, bununla da – onun mövcudluğunun harmonikliyini, onun inkişaf səviyyəsini müəyyən edir.

Əxlaq insanın inkişafının onun mövcudluq məntiqinə nə qədər müvafiq olduğunu müəyyən edir; buna görə də insanın öz inkişafı ilə bağlı məsuliyyəti məsələsi meydana çıxır. Bu məsələ etikanın mərkəzi problemidir. Biz etikanı ayrıca bir mühazirədə araşdırmağı lazım bilmədik, çünki insanın nələrə rəğbətlə yanaşması ilə həmin şeylərin necə olmalı olduğu arasındakı sərhəd olduqca şəffafdır.

Beləliklə, mənəviyyatın əsasını mentalitet təşkil edir. İnsanın şüuraltı qatı onun fiziki və mental ehtiyaclarını əks etdirməli, şüuru isə şüuraltı daxili sonsuz obrazları mümkün qədər adekvat olaraq anlayışla dərk etməlidir. Başqa cür desək, mənəviyyat – insanda kişi və qadın başlanğıclarının harmoniyasıdır.

İnsan digər bir insana yaxud mühitə bu və ya digər neqativ təsirləri təsəvvür edərək onları özünə şamil edir və buna yaxınlıq hiss edir. Buna görə də insanın pozitiv təsəvvürlərinin digər insanlara və fiziki mühitə münasibətdə reallaşdığını görmək istəməsi təbiidir. Lakin bu cəhddə mühit amili və insan istəklərinin ziddiyyətliliyi mövcuddur.

Mühit insanın davranışını nə dərəcədə müəyyən edir? İnsan varlığının illüziya çərçivəsində mühit müəyyən imkan hüdudu müəyyənləşdirir ki, insan onlardan istifadə edə bilər və etməlidir. Ancaq real ontologiyada mühit insan «Mən»inin bir hissəsidir və insanın iradəsi ona təkcə davranış vasitəsi ilə deyil, həm də mental obrazların fiziki təsiri səviyyəsində nüfuz edir.

İllüziya labüd olduğu və insan mövcudluğunun yeganə mənası olduğu üçün onun qanunlarına tabe olmalıdır. Mentallığın mühitə fiziki təsiri illüziya qanunlarına zidd deyil, çünki prinsipcə onun çərçivəsində mental «enerjinin» sırf fiziki enerjiyə çevrilməsi kimi mümkündür.

Beləliklə, əgər biz hərəkət etmiriksə, istədiyimiz (və təsəvvür etdiyimiz) hər şey bizə reallıq olaraq qayıdır; lakin ola bilsin elə bir şəklini dəyişmiş yaxud bir çox

nəticələrlə tamamlanmış olur ki, biz onun elə həmin istəyimizin nəticəsi olduğunu anlaya bilmirik.

Biz istəklərimizin nə qədər kiçik detallarını bilir və təsəvvür ediriksə, nəticədə nə alacağımızı daha yaxşı bilirik. Nə qədər çox detaldan xəbərimiz varsa, istəyimizin nəticəsini o qədər yaxşı tənzimləyə bilərik. Prosesin ən çox sayda detalını təsəvvür edərək biz istəyimizin ən optimal reallığını tənzim edə bilərik. Əlbəttə, prinsipcə mümkün olmayan şeyə (deyək ki, yumru kvadrata) nail ola bilmərik.

Əgər insanlar öz istəklərinə zidd olan bir şeyi təsəvvür etməzlərsə, insanların arzusu yerinə yetir. Əlbəttə, tam səviyyədə bu ziddiyyətdən qaçmaq mümkün deyil, çünki hər bir insanın hətta ən gizli nüanslarının belə bir-biri ilə ziddiyyət təşkil etdiyi ən müxtəlif istəkləri ola bilər.

İnsanın imkanları onun mühitlə tarazlığıq dərəcəsini müəyyən edir. İnsanın və mühitin tamamlanması (hər hansı bir tamamlanma kimi) absolyut ola bilmədiyi üçün insan da onu həmişə əslində olduğundan daha yaxşı tamamlaya bilər. İnsanın mental imkanlarının genetik olaraq fiziki imkanlarından doğduğu üçün insanın öz taleyinə görə daşıdığı mental məsuliyyəti – onun qlobal absolyut məsuliyyətinin müəyyən bir təzahürüdür.

İnsan həm özünün fiziki şəkildə mühitdəki hadisəyə reaksiya verməsi üçün (hətta fiziki mövcudluq üçün vacib olan reaksiya insanın imkan daxilində olsa belə), eyni zamanda də həmin hadisənin mövcudluğu üçün məsuliyyət daşıyır.

Belə halda iradə, məsuliyyət və imkan anlayışları eyni deyildir.

Mühitin inkişaf səviyəsi və tamamlanma hesabına insanın fiziki-mental səviyyəsi yüksək olduqca onların qarşılıqlı təsiri də daha harmonik olur.

Tam nə qədər az harmonikdirsə, daxili proseslər həmin qarşılıqlı təsiri daha tez dağıdır və ölüm baş verir.

İnsanın mövcudluğu onun tələbatının mövcudluğu ilə eynidir; insan tələbatının dərəcələri onun estetik dərketmə obyektlərinin dərəcələrinə müvafiq gəlir.

Tələbatın müxtəlif səviyyələri insan mövcudluğunun ayrı-ayrı səviyyələri kimi bir-biri ilə qarşılıqlı əlaqədədir. Bu – onların bir-birini tamamlaması, qarşılıqlı surətdə bir-birinə təsir etməsi və bir-biri ilə ziddiyyət təşkil etməsi deməkdir.

İnsan həmin səviyyələrin heç biri olmadan keçinə bilməz. Eyni zamanda insanın tələbatı yüksək olduqca, onlar daha harmonik şəkildə bir-birinə təsir edir, tələbatların qarşılıqlı təsiri bir səviyyədəki obraz və vəziyyətlərin digər səviyyənin obraz və vəziyyətlərini təhrik etməsi deməkdir. İnsan qədər ağıllı, lakin daha çox yaxud az fiziki imkana malik olan varlıq müvafiq olaraq fiziki yaxud əqli mənada deqradasiyaya uğrayardı, çünki onun müvafiq olaraq fiziki və ya əqli imkanları harmonik şəkildə onu tamamlayan əqli yaxud fiziki komionenti tapa bilməyəcəkdi.

Eyni zamanda fiziki və mental cəhətlərin absolyut harmoniyası mümkün deyil. Buna görə də insan qarşısında konstruktiv seçim problemi, yəni nisbətən harmonik yaşayış təmin etmək üçün müəyyən özünüməhdudluqla bağlı seçim problemi dayanır.

Nəhayət daxili proseslərin inkişafı, yəni tələbatın inkişafı ilə tez yaxud gec olsa belə müxtəlif səviyyələrdə harmoniya itir; insan üçün bu vəziyyət seçimlərin toqquşmasıdır ki, hər bir alternativ son nəticədə insanın mövcudluğunu imkansız edir. Beləliklə, mühitlə əlaqənin pozulması tələbat harmoniyasının pozulması ilə bağlıdır.

İnsanın tələbatları arasında yarıq onların inkişafı nəticəsində deyil, mühitdəki xoşagəlməz dəyişikliklər nəticəsində baş verməsi də toqquşmadır. Toqquşma vəziyyətində mental alternativ, yəni fiziki ölüm hesabına mental tələbatın ödənməsi (əksinə yox) insanın mahiyyətinə daha çox uyğun gəlir. İnsan mövcudluğunun mənası məhz onun mentalitetidir, çünki şəxsiyyət tamın komponenti olaraq mentalitetdən çıxmaqla inkişaf edir. Digər tərəfdən, cismin ölümü mentaliteti də dağıdır, lakin ölüm dinamik mental prosesləri tamamlayan fiziki proseslərin nəticəsində də baş verə, yəni

insanın mental inkişafının yeganə mümkün yekunu kimi məna kəsb edə bilər. Mentallığın hesabına fiziki mövcudluq isə insan həyatını mənadan məhrum edir.

Lakin hər hansı mental alternativin fiziki mövcudluğa layiq olmadığı, bunun doğrudan da insanın və mühitin harmoniyasını ifadə və təmin etdiyi və yalan statik qayda olmadığı alternativ barədə söyləmək mümkün olduğu faktını diqqətdən qaçırmaq olmaz.

Ümumiyyətlə, insanın həyata şüurlu təsiri, həmçinin də onun dayanması (məsələn, eftanaziya) – pozuntu yox, şeylərin təbii qaydasıdır; insanın bu təsiri göstərmə bacarığı – onun inkişaf göstəricisidir.

Fiziki aləmlə münasibətlər insan mövcudluğunun əsasını təşkil edir. Bu münasibətlərin harmonikliyi insan davranışının konkret məkan şəraitinə tam uyğun gəlməsini nəzərdə tutur.

İdeya və obrazlar kompleksi fiziki mövcudluğun başlanğıcını əks etdirir. Belə ki, incəsənətdə konkret-hissli obrazlılıq mühitin fiziki dinamikasını əks etdirir; bu yaxud başqa əşyaların, personajların konkret məkan hərəkətləri tam olaraq insan psixologiyasını abstrakt formada səciyyələndirən bu və ya digər anlayışlar arasında əlaqə yaradır.

Buna görə də mental yaradıcılıq etikası və onun nəticələrinin tətbiqi həmin obyektiv prosessuallığa riayət olunmasına əsaslanır. Başqa sözlə desək, intuisiya, şüuraltı qat şüurdan irəlidə gedir – bu da ki yenə şüuri (kişilik) ilə qeyri-şüuri (qadınlıq) arasındakı harmoniya deməkdir. Bu ardıcıllığı nəzərə almamaq mühitin insan tərəfindən dərkindəki pozuntulara, yaradıcılıq gərginliyinə səbəb olur. Əgər konkret olaraq incəsənətdən danışsaq, mücərrəd, əşyalanmamış xarakteristikalar bədii təfəkkürü məzmunsuzlaşdırır və buna görə də iddiasında olduğu fəlsəfi məzmuna çatdıra bilmir. İncəsənətdə vacib olan «nə» yox, «necə»dir; yəni həmin o «nə»dir – amma konkret hissli-obrazlı nüanslarda.

Əsil incəsənət səthi təsvirçilikdən kənardır; diqqəti mühitdəki bilavasitə obrazların dərkindən insanın onları necə qəbul etməsinə yönəldir ki, bunu eqorealizm adlandırmaq olar.

Məsələn, ədəbiyyatda ən başlıcası – əşyalar kompleksinin birləşmiş səthlər olaraq dərk olunmasıdır, çünki real-ontoloji, insan dünyası çərçivəsində onlar elə belədir («Uzunsov gölməçədən yerdəki göy görünürdü» – V.Nabokovun «Qeyri-qanuni doğulmuşlar işarəsi altında» əsərindəki birinci cümlədən fraqment).

Belə qavrayış psixoloji cəhətdən xüsusi nəzərə çarpdırılır və bədii psixoloji refleksi hərəkətə gətirir.

Rok-musiqidə psixodelik solo – bütün dünyanı özündə toplayan subyekti ifadə edir. Mövzu üzərindəki işin lakonikliyi də belə izah olunur.

Kino – təm aydınlığı ilə sənətin eqorealist mərhələsini təqdim edir. Kameranın obyektivi – qapalı məkanı seyr edən insanın baxışıdır.

Kameranın statikliyi hərəkətin real-ontoloji mövcudsuzluğunu xüsusi qeyd edir. Burada kadrdakı hərəkət, kadrlararsı montaj, yəni hərəkət illüziyası yaradan statik transformasiya kimi pərdələrin bir-birini əvəz etməsi və subyektin və obyektin qarşılıqlı təsir prosesi olaraq bütövlükdə filmin kompozisiyası böyük əhəmiyyət kəsb edir.

Trevellinqin (kameranın aktiv hərəkəti) təsiri ondan ibarətdir ki, cansız əşyaların və insanların bir-birini əvəz etməsi varlığın fiziki olaraq daxili vəhdətindən xəbər verir, lakin hərəkətsiz vəziyyətdə olan tamaşaçı özünü kamera ilə deyil, kameranı özü ilə eyniləşdirir, buna görə də sanki insan hərəkətlərinin illüziyalığını göstərən kameranın hərəkəti də illüziya kimi görsənir.

Eqorealistik kino, fikrimizcə, daha böyük lakonizmliyə, daha güclü hissi konkretliyə can atmalıdır. İdeal kino – izah etmir, o göstərir; və bu zaman nitq vizual bədii məkanın daxili xüsusiyyətinə çevrilir.

İncəsənətin üslubiyyəti barədə bundan əvvəlki söhbətimiz etik və qender aspektlərində yersiz görünə bilər, ancaq düşünürük ki, incəsənətin mentallığı inkişaf etdirmək, yəni özünün etik vəzifəsini yeninə yetirmək, kişiliyin və qadınlığın harmoniyasını ifadə etmək bacarığı üçün üslubiyyətin böyük əhəmiyyəti var.

İncəsənət müəyyən mental proseslərə və bunun nəticəsində cismi proseslərə təsir edir. İncəsənət obyektiv prosesləri kəskinləşdirərək (faciə) və bununla da gücləndirərək, yaxud əksinə, açıq-aydın absurda (komik) çatdıraraq onların keyfiyyət şərtiliyinin sərhədlərini göstərir. Beləliklə, incəsənət insan göstərişlərinə müəyyən istiqamət verməyə can atır, lakin onları ləğv edə bilmir. Buna görə də eyni bir sənət əsəri konkret qavrayışı subyektivlikdən asılı olan tamamilə başqa-başqa reaksiyalara səbəb olur. Çox zaman həmin reaksiyalar bədii əsərin bu yaxud digər nüanslarına diqqəti cəlb edərək, onun tam olaraq obyektiv məzmunu ilə ziddiyyət təşkil edir.

İncəsənət nəinki insanın davranışına təsir edə, həm də əksinə, onu zəiflədə bilər. Bu o zaman baş verir ki, insanın hərəkətlə bağlı fiziki ovqatı onun mental ovqatından geri qalır və insan sanki həmin hərəkəti öz təsəvvüründə yerinə yetirir. Belə təsəvvür olunan fəaliyyət şübhəsiz, fiziki və mentalın disharmoniyasını gücləndirir.

Hər necə də olsa, incəsənət – və ümumiyyətlə mental fəaliyyət – insandakı bu yaxud başqa mental-fiziki prosesləri yalnız gücləndirir.

Burada cəmiyyət tərəfindən mənəviyyatın mühafizəsi adı altında əxlaqi fəaliyyətə qoyduğu qadağaların mümkünlüyü barədə sual ortalığa çıxır.

Ümumiyyətlə desək, özü-özlüyündə mənəviyyatın mühafizəsinə qadağalar vasitəsi ilə yanaşma olduqca yanlışdır, çünki insanı özünə pisliyi yalnız qadağan olunduğu üçün etməyən bir varlığa kimi baxmağa öyrədir. Ölüm hadisəsi yaxud oğurluq üstündə cinayət cəzası cinayətkarı həbsə almağa imkan verir və yeni cinayətlərin yaranması üçün zəmin yaradaraq cəmiyyəti mənəvi cəhətdən pozur. İnsanın mənəvi fəaliyyətinin məhdudluğu isə onu aləmi tam dolğunluğu ilə hiss etməkdən məhrum edir, bununla onun mənəvi inkişafına və yekunda onun mənəviyyatına zərər gətirir.

Reklamın yaxud filmin təsiri altında insan bu və ya başqa qüsura aludə olsa, qəddar olsa, həmin insanın xasiyyətində disharmoniya proseslərinin yalnız katalizasiyası baş verir; əks halda həmin proseslər dəhə ağır nəticə verə bilər, yaxud da ətrafdakılar üçün gündəlik həyatda həmin qədər zərərli ola bilərdi. Bütövlükdə harmonik olan insanı isə belə təsir «əksdən» məntiqi üzrə inkişaf etdirir.

Uşaqların «böyüklərin mədəniyyəti»nin psixoloji təsirindən qorumağın lazım olması barədə fikir səhv sayılmalıdır. Yaşından asılı olmayaraq insan müəyyən inkişaf istiqamətinə malik olur və katalizasiya prinsipləri və «əksdən inkişaf» böyüyə olduğu kimi, uşağa da şamil edilə bilər, hələ üstəlik şamil olunmalıdır da; əks halda uşaq mental, mənəvi inkişafında geri qala bilər. Uşaqların tərbiyəsi üçün tövsiyyə edilən qəddarlıq dolu nağılları yada salmaq kifayətdir ki, balacaları müasir film-boyeviklərdən müdafiə etməyin qeyri-ardıcıllıq olduğunu dərk edək. Təsir rüşeymə istiqamətlənəndə isə bu, hər hansı halda ananın qavrayışından keçir və onunla da müəyyən edilir.

İnsanın hər hansı, lap kiçicik belə istəyi obyektiv və mühüm faktdır; ona təzyiq göstərmək cəhdi isə labüd olaraq mental və fizikinin müvafiqliyini pozacaqdır. Fizikinin geriyə təsiri təzyiq edilən və təzyiq edən mental göstərişləri disharmoniyaya təhrik edir və nəticədə özünü «aldadan» şüur gizli, nüans dərəcədə əzilimiş mental göstərişlərdən ibarət obrazlar yaradır. Həmin əvəzedici obrazın insanın fiziki vəziyyətinə sonrakı təsiri disharmoniya yaradır, çünki insan gizli istəyini nə ödəyə, nə də ondan azad ola bilir.

Problemin həlli ondadır ki, hər hansı istəyin dinamik, harmoniya yaradan potensialı açılsın, çünki o, istəyin obeyktivliyi (harmoniya inkişafdır, varlıqdır; disharmoniya statiklikdir, yəni tamın parçalanmasıdır, mövcudluğun sona çatmasıdır; tam varlığın reallığında harmoniya və disharmoniya bir-birindən ayrılmazdır) ucundan həmişə mövcud olaraq qalır.

Başqa sözlə desək, təhlil və özünütəhlil lazımdır ki, insanın mental və fiziki bacarığını inkişaf etdirmək üçün istəkdən – həmçinin də qarşılıqlı münasibətlərdə – istifadə etməyə imkan yaratsın. İstəyin boğulması faktı özü onun tərkib hissələrindən birinin insana xoş olmadığını göstərir və kənardan təsir həmin tərkib hissəsini təhrikləndirir. İnsan üçün bütövlükdə xoşagəlməz olan seçimin də mütləq müəyyən qədər xoş aspektləri olur. İstəyə qadağa qoymaqla bağlı qərar onunla qarşılıqlı təsirdə olmalıdır, bunun üçünsə istək çərçivəsində ona zidd olan və qərar üçün pozitiv olan bir məqam olmalıdır. Əgər istək çərçivəsində həll üçün pozitiv heç nə yoxdursa, insan üçün qərar nə qədər vacib olsa belə onu boğmaq mümkün deyil. Belə vəziyyət ya ölümə səbəb olur, ya da insan nə yollasa (mühitə öz davranışı ilə, yaxud sırf mental iradəsi ilə təsir göstərərək) vəziyyəti dəyişdirir.

Son nəticədə hər bir insanın ölümü – disharmoniya təşkil edən istəklərin dağıdığı təsirinin nəticəsidir. Bu təsirin artması insanın mövcudluq çərçivəsində yaşamaq qabiliyyətinin tükəndiyini bildirir. Lakin optimal inkişaf üçün insan özünün qüsurlu, qeyri-harmonik istəklərini boğmağa yox, dəyişməyə çalışmalı, bununla da optimal şəkildə özünün şəxsi bacarıqlarını inkişaf etdirməlidir. Lakin transformasiya üçün öz qüsurlu istəklərindən qorxmaq lazım deyil; onların üzərində işləmək gərəkdir, lakin cəmiyyət əvvəlcədən buna tabu qoyursa (yuxarıda bax), deyiləni yerinə yetirmək mümkün olmur.

Qadağalara adət edən bir cəmiyyətdə onların aradan götürülməsi asayişin pozulmasına səbəb olur, çünki özündə insanlığa hörmət etməyə öyrəşmək üçün insana vaxt gərəkdir. Lakin bu böhran dövrü labüddür və gərəklidir. Digər tərəfdən, hər bir insanda müəyyən disharmoniyanın mövcudluğu qadağanın ölümcül xəstə üçün ağrıkəsici olması kimi labüd və faciəli rolundan xəbər verir. Problemin nisbi həlli – qadağaların ardıcıl şəkildə və sonsuz olaraq azaldılmasıdır.

İnsani münasibətlər hər iki – mental və fiziki səviyyələrdə mövcud olan mühitin bir hissəsidir. Buna görə də burada harmoniyaya nail olmaq çox mürəkkəb məsələdir.

Disharmonik münasibətlər labüddür; onlar sonradan harmonik əlaqələri də mürəkkəbləşdirərək və müvafiq davranış reaksiyalarına təhrik edərək labüd şəkildə insanın yaddaşında qalır (bunlar «xırda» şeylər olsa belə).

Əlbəttə, hər hansı bir proses kimi, insani münasibətlər də süqut edir. Lakin onlar inkişafın o dərəcəsinə çata bilər ki, süqutun səbəbi ölüm olsun. Münasibətlər onların məzmununa müvafiq gələn məkan-zaman şərtlərinə malik olmalıdır, əks halda münasibətlər real olaraq inkişaf etmir və hissli-obrazlı sonsuzluqdan məhrum olaraq sanki paradoksal görünən ətalət yaradır.

Münasibətlər harmonik olduqca, yəni onlar dinamik tarazlıqda olduqca, münasibət iştirakçılarının maraqları qarşılıqlı mənalı olur.

Eyni zamanda «qırıqlanma»ların mövcudluğu, süqutun potensiallığı və bununla belə sevgi münasibətini saxlamaq ehtiyacı mənəvi borc anlayışında öz əksini tapır.

Lakin münasibətlər daha harmonik olduqca, borc sevgi ilə daha böyük ziddiyyət təşkil edir. Eyni zamanda qeyri-dinamik, qeyri-harmonik münasibətlərdə sərt mental qaydalar süqutu saxlayaraq və həm də mürəkkəbləşdirərək özünü borc kimi qələmə verir.

Toqquşma vəziyyətləri barədə biz artıq yuxarıda danışmışdıq. Deyək ki, fədakarlıq o zaman özünü doğruldur və o vaxt lazımdır ki, harmoniyaya yardım etsin; başqa cür desək, fədakarlıq obyektinin marağı insan inkişafının idealı baxımından daha vacib olsun. Əsil fədakarlıq harmoniya vəziyyəti olaraq sevgi ilə eynidir və özünü doğruldur ona görə ki, sevgi mövcuddur, yəni harmoniya vardır. Sözün əsil mənasında harmonik insan həm fədakarlığı qəbul etməyi, və həm də lazım gələrsə özü fədakarlıq etməyi bacarmalıdır. Amma harmoniya qabiliyyəti həm subyekt olaraq, həm də özünü doğrultmursa – obyekt olaraq fədakarlıqdan imtina etmək qabiliyyəti deməkdir.

İnsan harmonik olduqca, münasibətlər də harmonik olur və mühitin «Mən»dən ontoloji asılılığı ilə bağlı toqquşmalar daha az olur; lakin, əlbəttə ki, tam və həmişə

inkişafda olan varlıqda harmoniya idealı mümkün olan şey deyil. Üstəlik də fərdi insani harmoniya qabiliyyətsizliyi (qırıqlanma) şəxsiyyətin komponenti olaraq onun harmoniya qabiliyyətini tamamlayır; başqa cür desək, bizim məziyyətlərimiz elə bizim qüsurlarımızın davamıdır. Qender terminologiyasına tətbiq etsək, kişi və qadın başlanğıcları diqqəti müvafiq olaraq şüura və şüuraltı qata, yaxud da qeyri-şüuriyə cəlb etməklə qeyri-mükəmməldir; amma həmin bu cinsi «ixtisaslaşma» olmasaydı, həmin iki başlanğıc qütblərinin bir-birini tamamladığı və gücləndirdiyi inkişaf da olmazdı.

Qeyri-harmonik şəxsiyyət, qeyri-harmonik münasibətlər, əksinə, fiziki eqoizmlə borc eqoizmi arasında vurnuxur və onda – nə qədər arsız çıxsa da – hətta fədakarlıq belə disharmoniyanı artırır.

Disharmoniya şüur səviyyəsində ehkama çevrilən statik göstərişlərin mövcudluğu demək olduğu üçün burada destruktiv inam anlayışından istifadə etmək olar.

Dağıdıcı inam yanlış ideallar yaradır. İdealın təsir obyekti – insan mentaliteti – demək olar ki, passivdir. İnsan fərdiliyi nə isə şərti bir şeyə, mövcudluğun potensiallığına çevrilir, çünki öz-özlüyündə deyil, ideala münasibətdə müəyyən olunur.

Fiziki istəklərdən asketizmə qədər çatan imtina mentaliteti canlı yaradıcı təəssüratlardan məhrum edərək sevgi ilə eyniləşdirilir; lakin mental ideal belə üsulla reallıqdan ayrılaraq absolyutlaşdırılan anlayışların («ədalət», «xeyirxahlıq», «sevgi» və s.) sadəcə təkrarına çevrilir.

İnsanda fiziki və mənəvi tələbatlar qırılır. Fiziki tələbatın reallığı insanı onların ödənməsinə istiqamətlənən hərəkətlər yerinə yetirməyə sövq edir. Cismi həzz təzimi və eyni zamanda cismiliyi mühakimə edən, lakin həm də onun «labüd şər» kimi doğruldan yanlış mənəvi ideal təzimi bir-birinə zidd olaraq birləşir, insandan isə əvəzində özünə xüsusi diqqət tələb edir. Cismi həzz «günah iş» sayıldığı üçün o, mentalitetin təşkiledici, estetləşdirici təsirindən məhrumdur və son nəticədə insanı məhv edir.

İnsan özünün prinsipdən psixoloji asılılığa münasibətini absolyut ideal münasibət hesab edir, çünki varlıqla bağlı məsuliyyətini dərk etməyə qabil deyil; vaxtaşırı müxtəlif dərəcəli təntənə ilə o özünü dağıdıcılıq instinktinin ağuşuna atır. Sonra isə peşman olaraq günahının əvf olunması üçün yalvarır (disharmoniyalı fədakarlığa da əl atmaqla).

Eyni zamanda real olaraq idealın, yəni absolyut mental kateqoriyaların mövcudluğunu təsəvvür etmək cəhdi onların fiziki-cismi, real mürəkkəblikdən məhrum olan və insan orqanizmində mentalitet statusuna xas olan şərhinə gətirib çıxarır. Başqa cür desək, bu cür şərh ayinləşmiş, yəni anlayış kimi üzərinə vurğu qoyulan və bununla da sanki mental rəng alan adi fiziki hərəkətlər deməkdir.

Ayinləşmə özünü yaradıcılığın etika və estetikasında parlaq nümayiş etdirir. Dar, təhlil olunmayan anlayışlar («vergi», «nur») çərçivəsinə salınan yaradıcılıq «müqəddəsləşir», mahiyyətcə isə bəsitləşir. Bu halda incəsənət özünün hissli-obrazlı xarakteri ilə əlaqədar ayinə çevrilir, onun doğrudan da görkəmli əsərlər yaradan hissli obrazlılığından ayrılan abstrakt, məzmuni anlayış tərəfinə diqqət güclənir. Və burada incəsənət son dərəcə primitiv olaraq – bu və ya başqa ideyaların təbliğat vasitəsi kimi başa düşülür. İncəsənətə belə yanaşma həm primitiv hissli-obrazlı qavrayışa, həm də primitiv ideyalara müvafiq gəlir; ideya və hissli-obrazlı cəhətlər bir-birindən ayrılanda başqa cür mümkün də deyil.

Biz artıq incəsənətin şüura etdiyi təsirdən danışmışdıq. O, məsələn, insanda dağıdıcı instinktlərin yaranmasına səbəb ola bilər; hətta ən görkəmli əsər belə bu cür təsirə malik ola bilər, ona görə ki həqiqətən reallığı, o cümlədən də insan meyillərinin reallığını əks etdirir. Lakin disharmonik şəxsiyyət başa düşmür ki, məsuliyyət incəsənətin deyil, insanın çiyninə düşür və onu «ideya» qabiliyyətsizliyi çərçivəsinə salmağa çalışır. Nəticədə cəmiyyət disharmoniyadan azad olmur; yalnız hansısa bir amil daha dağıdıcı nəticələrə təhrik edincə onun aşkarlıq müddətini uzadır; digər tərəfdən isə, incəsənəti «axtalayaraq», cəmiyyət özünü daxili harmonik proseslərə sövq etmək şansından məhrum edir. Statik ideal, çılpaq abstraksiya olaraq, aktiv unifikator

rolunu oynayır; buna görə də insan unifikasiya edilən zorakılığı və unifikasiya olunan asılılığı cəmiyyətə, o cümlədən də erosa şamil edir. Burada o, cismi və mental cəhətləri üzbəüz qoyur; hissi sonsuzluqdan ayrı şəkildə başa düşülən mentallıq abstraksiya, yəni ümumiləşmə, yəni unifikasiya olduğu üçün bu cür mental sevgi homoseksual rəng daşıyır. Kim ki idrakda həmişə yeniləşən, özündən fərqlənən. Qabaqcadan deyilməsi mümkün olmayan sonsuzluqdan qorxur, o şəxs həm də heteroseksul sevgini «hissi günah» kimi başa düşərək ondan da qorxacaqdır. Burada insanın reallıq məntiqi onu cismani, fiziki, hissli, lakin homoseksual, insan duyğularının ilkin məntiqinə zidd olan sevgiyə gətirir.

Öz baxışını genişləndirmək insanın mühitlə qarşılıqlı təsiri zamanı bu qarşılıqlı təsirlə eyni olaraq həm də labüddür. Lakin mentallığın zorakı absolyutlaşma xarakteri bu meyili hər halda potensial olan təcavüzkar rəngə boyayır.

İnsani münasibətlər idrakın, yəni praktiki yaradıcılığın ən maraqlı obyektidir.

İnsan mövcudluğunun mənası mental fəaliyyət olduğu üçün insan münasibətləri idealı başqa birisində fəaliyyət dairəsindən asılı olmayaraq yaradıcı görür və həmin yaradıcıya kömək etmək istəyir.

Burada hər şeydən əvvəl intuisiyanın olması vacibdir; intuisiyanın zəifliyi, ona qarşı inamın olmaması real olaraq aşağı münasibətlərin məzmunundan xəbər verir. Lakin eyni zamanda tamı konkret nüansların sonsuz bitişən kütlə kimi təsəvvür edilməsinə yardım edən məntiqi təhlilin də olması vacibdir; daha xüsusini daha ümumidən ayırmaq və hətta hansısa nüansların aşkar olunmasını qabaqcadan deyə bilmək lazımdır. Bu zaman təhlil zamanı şüurun yaratdığı obrazlar təhlil edilən insandan mühüm dərəcədə fərqlənə bilər; bu – hər hansı təhlilin «artıqları»dır.

Beləliklə, məntiq münasibətlərin harmoniyasına kömək edir; məntiqi təhlildən məhrum olan münasibətlər budəqiqəlik emosiyanın dar çərçivəsinə düşür; məntiq, hər hansı idrakda olduğu kimi, emosional ünsiyyəti genişləndirərək və dərinləşdirərək, şüuraltından hələ çıxmamış yeni hissi obrazlar yaradır. Hər hansı idrakda olduğu kimi, məntiqi təhlil – keçmişin təhlilidir; təhlil anında keçmiş onu dəyişdirən indinin çərçivəsində saxlanır; bu prosesin məntiqinin müəyyənləşdirilməsi sonrakı dəyişikliyin meyarının müəyyən olunması deməkdir.

Əsil məntiq – intuisiyaya əsaslanan məntiqdir. Xatırladaq ki, insanın prinsipial məntiq qabiliyyəti rüşeym mərhələsində formalaşmağa başlayır.

Varlığın və «Mən»in eyniliyi harmoniyanın etik idealının idrak ilə onun praktiki və nəzəri ölçülər vəhdətində eyni olan özünüreallaşdırma deməkdir. Buna görə də harmoniyaya və sevgiyə meyillilik hər hansı halda «Mən»ə (onun qender mənsubiyyətindən asılı olmayaraq) xasdır.

***Seminarı necə keçirməli?***

Bu – praktikaya ən yaxın olan kurs mövzusudur. Tələbələrdə bu mövzuya qarşı təbii canlı maraq yaratmaq üçün seminar məşğələlərini müzakirə şəklində keçirmək məsləhətdir.